**Hikmət Firdovsi oğlu Səlimov**

**UOT:338;338.43; JEL:Q13;Q19.**

# Lənkəran iqtisadi rayonda aqroparkların və klasterlərin yaradılması nəticəsində marketinq fəaliyyətinin genişləndirilməsi imkanları

***Xülasə***

*Məqalədə iqtisadi rayonda aqropark və klasterlərdə müasir texnologiyaların tətbiqi ilə istehsal, emal, logistika üzrə fəaliyyətlərin vahid ərazidə cəmləşməsi rəqabətqabiliyyətli kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalına şəraitin yaradılmasına verəcək tövhələrdən bəhs edilmişdir. Aqroparkların yaradılması bağçılıq, quşçuluq və heyvandarlığın xammala olan tələbatının yerli istehsal hesabına ödənilməsi ilə yanaşı, ərzaq məhsullarının idxalının maksimum endirilməsinə və kənd təsərrüfatı məhsullarının ixrac imkanlarının genişlənməsinə şəraitin yaradılması qeyd edilmişdir. Məqalədə klasterlərin və klasterləşdirmənin iqtisadi mahiyyəti, spesifik xüsusiyyətləri, növləri və üstünlükləri, xarici və Azərbaycan alimlərinin bu sahədəki tədqiqatları və məsələyə yanaşmaları qeyd edilmişdir. Aqro-sənaye klasterin yaradılması və fəaliyyəti konsepsiyasının məqsəd və vəzifələri, həmin konsepsiyasının icrası prosesində prinsip və metodlar geniş təhlil edilərək tövsiyyə və təkliflər verilmişdir.*

***Açar sözlər:*** *marketinq, aqropark, klaster, aqrar-emal müəssisəsi, logistika, istehsal, emal.*

## Giriş

Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, onların maddi rifah halının yaxşılaşdırılması, fəal məşğulluğunun təmin edilməsi üçün qarşıda duran əsas hədəflərdən biri – qeyri-neft sektorunun aparıcı sahəsi olan aqrar-sənaye sektorunun inkişafını təmin etməkdir. Bu məqsədlə aqrar sektorun və onun əsas bölməsi hesab edilən aqrar-emal müəssisələrinin fəaliyyətinin innovativ meyarlar əsasında qurulması, o cümlədən aqroparkların və aqrar-sənaye klasterlərinin yaradılması əsas hədəflərdəndir. Ölkə əhalisinin təxminən yarısının kəndlərdə yaşaması faktları kənd təsərrüfatının bütün alt sahələrinin davamlı inkişafını təkidlə tələb edir. Aqroparkların və aqrar klasterlərin yaradılması təkcə tədqiqat aparılan regiona deyil, həm də ölkəyə investorların cəlb olunmasına, əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatının daha da yaxşılaşdırılmasına, yerli məhsulların rəqabət qabiliyyətliliyinin və ixracının artırılmasına, milli brendlərin və əlaqələndirilmiş vahid sistemin formalaşmasına, məhsul istehsalına çəkilən xərclərin, eləcə də maya dəyərinin aşağı düşməsinə və regionlarda məşğulluğun təmin edilməsinə şərait yarada biləcəyi məqalənin əsas məqsədini özündə cəmləşdirir.

## Aqroparkların iqtisadi rayonda yarada biləcəkləri prespektivlər

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr edilmiş iclasında qeyd etmişdir ki, ölkədə 51 aqropark və iri fermer təsərrüfatı yaradılmalıdır. Onların əhatə etdiyi sahə təqribən 200 min hektara yaxın olacaqdır, istehsal etdikləri məhsulların həcmi isə təqribən 1 milyard manat təşkil edəcəkdir [5]. Qarşıya qoyulan bu vəzifə Lənkəran iqtisadi rayonunda da mərhələlərlə həyata keçirilməkdədir. Aqroparkların biznes infrastrukturu və yaxud modeli olaraq ilk dəfə Niderland Krallığında yaradılmışdır və onlar mikro, kiçik və orta sahibkarlığa əməli və maliyyə dəstək formalarından biridir. Aqroparkların İsveçrə, Almaniya, Hindistan, Çin, Fransa İsrail, Niderland və digər ölkələrdə yaradılması kənd təsərrüfatının



*©Hikmət Firdovsi oğlu Səlimov Lənkəran Dövlət Universiteti, baş müəllim. E-mail:hikmat.salimov@bk.ru*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

dinamik inkişafında mühüm rol oynamaqla, ekoloji təmiz məhsul istehsalına, əhalinin ərzaq təhlükəsizliyinə təminat yaratmışdır. Lakin aqroparkların yaradılması konsepsiyası həm postsovet respublikaları və həm Avropa ölkələri üçün yeni bir mexanizmdir. Aqroparkların yaradılmsı və inkişafında Niderland və Yamayka təcrübəsi öz mahiyyəti və iş üslubu ilə fərqlənir. Niderland aqropark konsepsiyasının formalaşmasının vətəni hesab edilir və orada hələ 1998-ci ildə ilk aqropark yaradılmışdır. Orada "aqro-qida" sektoru, aqrobiznesin inkişafı üzrə əsas strategiyaya çevrilmişdir. Bu ölkədə formalaşdırılan aqropark layihəsinin əsas strategiyaları arasında Bilik Mərkəzlərinin, Sahibkarların, qeyri-hökumət və hökumət təşkilatlarının iştirak etdiyi KENGİ model strategiyası əsas yer tutur. "Qızıl dairə" və ya "Qızıl üçbucaq" adlanan bu modellər bütün tərəfləri aqrobiznes mühitinə cəlb etməyə davamlı və uzunmüddətli strategiyaya yardım etməyə səfərbər edilir. Aqropark şəbəkəsi inkişaf edən ölkələrdən biri də Yamaykadır. Orada icra olunan aqropark layihələri aşağıdakıların asanlaşdırılması məqsədilə formalaşdırılır: dövlət-özəl sektorun əməkdaşlığı əsasında investisiyalarının təqdimatı; resurs bölgüsü və istifadəsinin səmərəliliyinin nümayişi; iqtisadiyyatın diversifikasiyası; bazara girişin yaxşılaşdırılması; davamlılığın təmini və stimullaşdırılması; uzunmüddətli və mövsumi məşğulluğun yaradılması. Hindistanda yaradılan aqroparklar – kənd təsərrüfatı məhsullarının emal imkanlarını genişləndirməyə, məhsul istehsalçılarını tələb olunan anbarla təmin etməyə, loqistika təqdimatları aparmağa, "daxili bazardan kənar" yeni bazar tələbi yaratmağa hədəflənirlər. Çində aqroparkların yaradılmasında başlıca məqsəd ölkədə qida təhlükəsizliyini aradan qaldırmaqdır. Bu ölkədə qida parkının investisiya cəlbediciliyi təmin edilir, yeni texnologiyaların tətbiqi əsaslı şəkildə stimullaşdırılır, ən yaxşı idarəetmə təcrübəsindən istifadəyə üstünlük verilir. Azərbaycanda "Aqropark"ın inkişaf konsepsiyası əsasən ixrac potensialının artırılması, milli brendlərin yaradılması, kiçik və orta fermerlərin innovativ təcrübəsinin artırılması, kənd təsərrüfatı sektoru ilə emal müəssisələrin arasında sıx koordinasiyalı sistemin yaradılması, istehsalçı, işçi və istehlakçı arasında inteqrasiyanın təmin edilməsi, yüksək məhsuldarlığın əldə olunması, aqrar sahədə yüksək ixtisaslı mütəxəssislərin təkmilləşdirilməsi və yeni iş yerlərinin açılmasından ibarətdir.



Azərbaycanda aqroparklar ölkə prezidentinin 2014-cü il aprelin 16-da imzaladığı "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" fərmanına əsasən yaradılıb. İlk aqroparkın təməli 2015-ci ildə Şəmkirdə qoyulub, sonra isə Xaçmaz rayonunun Yalama ərazisində təşkil edilmişdir. Hazırda ölkə ərazisində (Ağsu, Qax, Kürdəmir, Füzuli, Ağcabədi, Beyləqan, İmişli, Ağdaş, Şamaxı, Saatlı, Yevlax, Xızı və s.) ümumi sahəsi 157,8 min hektar olan 37 aqroparkın yaradılması təşviq olunur, onlardan 23-ü bitkiçilik təsərrüfatı, 14-ü isə heyvandarlıq kompleksidir. Bu aqroparklarda 10 min yeni iş yerinin açılması nəzərdə tutulur [7]. Onlar özünün əhatə dairəsinə görə fərqlənirlər. Yaradılan aqroparkda müasir texnologiyaların tətbiqi ilə istehsal, emal, logistika – məhsulları saxlama, çeşidləmə, qablaşdırma, markalama, daşınma, daxili və xarici bazarlarda satış, yaşıl marketlər və fermer mağazaları üzrə fəaliyyətlərin vahid ərazidə cəmləşməsi rəqabətqabiliyyətli kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalına şərait yaranmışdır. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsində qeyd edilir ki, ölkədə 2020-ci ilə kimi bir aqroparkın real ÜDM-ə birbaşa təsirinin 135 milyon manat, dolayı təsirinin isə 220 milyon manat olmaqla, ümumilikdə 355 milyon manat olacağı nəzərdə tutulmuşdur. Lakin ölkədə gerçəkləşən pandemiya həmin ümidləri doğrulmağa öz mənfi təsirini göstərmişdir. Bütünlüklə respublikamızda aqroparkların ölkədə fəaliyyətə başlaması əsas indikator hesab edilir [1]. Bizim fikrimizcə, aparılan kompleks təhlil nəticəsində Lənkəran iqtisadi rayonunda aqrar emal kompleksi üzrə aşkar edilən çoxsaylı ehtiyat imkanlarından səmərəli istifadə etmək üçün

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

aqroparkların yaradılmasına üstünlük verilməlidir. Rusiya Federasiyasının və Belarusun aqroparkların təşkili üzrə iş təcrübəsini öyrənərkən aydın olur ki, həmin ölkələrdə aqroparklar əhalisi hətta 200 nəfərdən 1000 nəfərə qədər olan kəndlərdə və qəsəbələrdə yaradılmışdır. Təkcə 2017-ci ildə Rusiya Federasiyasının ərazisində 11 müasir aqropark yaradılmışdır. Həmin aqroparkların hər biri 8-200 hektar ərazidə olmaqla özündə iri anbarları, məhsulların saxlanması və yüklənməsi üzrə açıq tipli meydançanı, ticarət məqsədilə aqroparka gələn avtomobillər üçün meydançanı, sosial infrastrukturu (kafe, restoran, mehmanxana, avtomobil dayanacağı və s.) cəmləşdirir [8]. Həmin ölkənin Samara vilayətində investorlar tərəfindən maliyyələşdirilən, dəyəri 2 milyard rubl təşkil edən “Aqropark Samara” kompleksi yaradılmışdır. Onun illik dövriyyəsi 300 min ton olmaqla, eyni zamanda 12 min ton məhsul saxlama anbarı vardır. Aqropark 2030-cu ilə qədər iri vergi ödəyicilərindən biri olmaqla region büdcəsinə ildə 500 mln. rubl vəsait ödəyəcəkdir [9]. Rusiyadakı “Kazan” Aqroparkı müasir, çoxfunksiyalı texnoloji kompleks olub, ərasizi 8 hektardır. Orada kənd təsərrüfatı məhsullarının emalı üçün 10 modul tipli sex, sahəsi 4 min $m^2$ olan anbar və soyutma kamerası, 230 $m^2$ olan çörək bişirmə sexi, 224 yerlik satış zalı, 100 oturacaq yeri olan kafe, 37 nömrəlik mehmanxana və 100 $m^2$-ə yaxın inzibati ofisi vardır. Tatarıstanda özəl aqro-sənaye parkı da yaradılmışdır [10].

Azərbaycanda yaradılan aqroparkların ərazisi orta hesabla 4,3 min hektardır (157,8 min ha: 37 aqropark) [8]. Şəmkir rayonunda aqropark 543 hektar ərazidə yaradılıb. Aqroparkda müasir istixana kompleksi, şitillik, tinglik və intensiv bağçılıq təsərrüfatları, meyvə və tərəvəz emalı zavodları, tara istehsalı fabriki, logistika və aqroservis mərkəzi, soyuducu anbar, satış mərkəzləri, avtopark, elmi araşdırma və innovasiyalar mərkəzi, otel və müxtəlif infrastruktur müəssisələr olacaq və bu obyektlərin inşasına başlanılıb [10]. Cəlilabad rayonunda yaradılan “Günəşli-Aqro” MMC-nin sahəsi 1600 hektardır. Aqroparkın torpaqlarında arpa, buğda, qarğıdalı, pambıq, şəkər çuğunduru, yonca əkilir. Orada heyvandarlıq kompleksi, süd emalı zavodu, ət kəsimi müəssisəsi, sosial infrastruktur obyektləri mövcuddur [7]. “Yalama Aqropark” MMC-də cins heyvandarlıq kompleksinin qarışıq yem və süd emalı zavodları, istixana kompleksi, intensiv balıqçılıq təsərrüfatlarının yaradılması da nəzərdə tutulur [11]. Ümumi ərazisi 300 hektardan çox olan Abşeron aqroparkın strukturu da maraq doğurur. Orada: logistika və qablaşdırma mərkəzi, məhsul anbarı, soyuducu, məhsul emalı müəssisəsi, şitil hazırlayan müəssisə, istixanalar üçün xammal satan müəssisə, istehsal vasitələri üzrə təminat mərkəzi, innovasiya və elmi-tədqiqatlar mərkəzi, çoxsaylı istixanalar, gömrük fitosanitariya mərkəzi mövcuddur. Bu aqropark öz strukturu ilə aqroklasterə yaxındır. Orada yetişdirilən məhsulların bir hissəsi ixrac edilir [12].

Lənkəran iqtisadi rayonunda 13 qəsəbə, 91 kənd inzibati ərazisi (orada isə 638 kənd) mövcuddur. Həmin qəsəbələrin 8-i Lənkəran, 3-ü Masallı, qalan 2-si isə Astara və Cəlilabad rayonlarının ərazisindədir. Yuxarıda şərh edilən real təcrübədən istifadə edərək, tədqiq etdiyimiz iqtisadi rayonda da çoxsaylı müxtəlif tipli aqroparklar yaratmaq mümkündür. Lakin onu nəzərə almaq lazımdır ki, regionda mövcud olan kəndlər kiçikdir, onların çoxu dağlıq ərazidə yerləşir, iqlim şəraiti kəskin dəyişkəndir. Odur ki, Belorus və Rusiya təcrübəsini rəhbər tutaraq, regionun 638 kəndində kiçik də olsa aqropark yaratmaq həm təşkilati və həm də iqtisadi cəhətdən əlverişsiz olardı. Bizim fikrimizcə, aqroparkları iqtisadi rayonun inzibati ərazi dairələri üzrə yaratmaq nəticə etibarilə yüksək səmərə verə bilər. Ən azı ona görə ki, həmin dairələrdə əhalinin sayı 2,4 min nəfərlə 8,8 min nəfər arasında dəyişir. Nəzərə alsaq ki, hazırda ölkə əhalisinin 68,4 %-i əmək qabiliyyətli və 48 %-i məşğul əhalidir, onda Lənkəran iqtisadi rayonunun kənd inzibati ərazi dairələrində ən azı 1200 nəfər, ən çoxu isə 4200 nəfər məşğul əhali vardır. Bu potensialdan səmərəli istifadə etmək və onların sürətli miqrasiyasının



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

qarşısını almaq üçün dövlət dəstəyi əsasında məqsədli layihələri həyata keçirməklə və yaxud investorları fəal cəlb etməklə tədqiq edilən iqtisadi rayonda 90-a yaxın müxtəlif tipli aqropark yaratmaq olar. Bu mürəkkəb proses mərhələlərlə, fermerlər arasında geniş maarifləndirmə işi aparmaq, güzəştlər tətbiq etmək əsasında mümkündür. Bu vacib məsələnin həllinə: Kiçik və Orta Biznesin İnkişaf Agentliyini, Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunu, eləcə də Sahibkarlıq Təşkilatları Milli Konfederasiyasını, zəruri hallarda isə xarici firmaları müştərək fəaliyyət məqsədilə cəlb etmək olar. Qeyd edilənləri nəzərə alaraq, yaxın gələcəkdə inzibati rayonun kənd təsərrüfatının strukturuna uyğun Astara rayonunda 13, Masallıda 15, Lənkəranda 10, Cəlilabadda 17, Lerik və Yardımlı rayonlarının hər birində 18 aqropark yaratmaq tövsiyyə olunur. Araşdırmalar göstərir ki, ölkədə hazırda fəaliyyətdə olan aqroparklarda il ərzində 6 mln. manatlıq məhsul istehsal edilir və orada orta hesabla 80 iş yerinin yaradılmasını nəzərə alsaq, onda aqroparkların təşkili başa çatdıqdan sonra iqtisadi rayon üzrə kənd təsərrüfatı məhsullarının əlavə həcmi 546 mln. manat (91 aqropark x 6 mln. manat) və 7280 iş yeri (91 aqropark x 80 nəfər) artmış olacaqdır. Regionda yaradılacaq ixtisaslaşdırılmış və qarışıq tipli aqroparkların fəaliyyəti kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturu şəbəkələrinin yaradılması və inkişafı üçün bazis rolunu oynamalıdırlar. Yaxın gələcəkdə iqtisadi rayonda özəl aqrar-sənaye parklarının yaradılması da bütün növ itkilərin qarşısını almaqla yanaşı yerlərdə ərzaq təhlükəsizliyinin təmin edilməsinə öz tövhəsini vermiş olacaqdır.

**Klasterlərin iqtisadi rayonda yarada biləcəkləri prespektivlər**

Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində aqrobiznesin inkişafına dəstək infrastrukturunun tərkibində aqroparklarla yanaşı, aqrobiznes inkubatorları və startaplar şəbəkəsi, eləcə də aqrar-sənaye klasterləri mühüm yer tutur. Lakin onların aqrar sferada yaradılması özünün başlanğıc mərhələsindədir. İqtisadi ədəbiyyatlarda aqroparkları çox vaxt klasterlə eyniləşdirirlər. Lakin bu fikirlə razılaşmaq çətindir, çünki aqropark klasterin az sayda olan lokal funksiyasını yerinə yetirir. Aqrar-emal kompleksinin davamlı inkişafının zəmanətçisi kimi aqrar-sənaye klasterləri çıxış etməlidir. Çünki kənd təsərrüfatı məhsulları məhz həmin kompleksdə çoxçeşidli ərzaq məhsullarına çevrilir və əhalinin dəyişən tələbatına hədəflənir. Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalının artmasına və əhalinin ərzağa fiziki çıxış səviyyəsinin yaxşılaşdırılmasına baxmayaraq aqrar kompleksin səmərəliliyi aşağı səviyyədədir və onun başlıca səbəbi torpaqlardan düzgün istifadə edilməməsi, təsərrüfatların ölçüsünün kiçik olması, sahəyə mütərəqqi texnologiyaların ləng tətbiq edilməsi, elmi nəaliyyətlərin istehsalata zəif yol tapması, yüksək ixtisaslı kadr çatışmazlığıdır. Məhsuldarlığın aşağı olması səbəbindən ölkədə kənd təsərrüfatı məhsullarının adambaşına düşən həcmi, hətta MDB ölkələrinin bir çoxundan aşağıdır. Respublikada buğda və buğda məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi təmin edilməmişdir. Hələ də idxalda ərzaq məhsullarının xüsusi çəkisi yüksəkdir. Təkcə 2010-2019-cu illər ərzində respublikanın aqrar sferasında müxtəlif səbəblərdən 474 təsərrüfat subyekti öz fəaliyyətinə xitam vermişdir. Hazırda aqrar-emal sferasında qida məhsulları istehsal edən müəssisələrin 75%-i, içki istehsal edən müəssisələrin isə 80,2%-i mikro və kiçik müəssisə statusundadır. Məhz belə müəssisələrin maddi-texniki bazası zəif olduğundan və investisiya çatışmazlığı səbəbindən yeni məhsul istehsal etmək iqtidarında olnmadığından rəqabətə davam gətirmədən öz fəaliyyətlərini dayandırırlar. Odur ki, aqrar sahənin dayanıqlı inkişafını təmin etmək üçün vacib məsələlərdən biri məhsul istehsalının artırılması, onların keyfiyyətinin yüksəldilməsi, xammal müəssisələri ilə emal sahəsi arasında iqtisadi əlaqələrin təkmilləşdirilməsi zərurətə çevrilmişdir.

Azad bazar iqtisadiyyatı şəraitində həmin klasterlərin yaradılması ilk növbədə istehsal və emal müəssisələrinin, elmi-tədqiqat təşkilatlarının, ali, orta ixtisas və peşə təşkili



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

ocaqlarının, innovativ infrastrukturların, logistika, kommunikasiya və maliyyə-kredit qurumlarının birgə təşəbbüsünə əsaslanmalıdır. Həmin qarşılıqlı əlaqənin prinsipial əksi 1 saylı şəkildə əks etdirilmişdir. Bunun üçün potensial iştirakçılar arasında maarifləndirmə, inandırma və həvəsləndirmə tədbirlərinin həyata keçirilməsi vacibdir.

**Şəkil 1.**

**Klasterə daxil olan müəssisə və təşkilatların qarşılıqlı əlaqəsinin prinsipal sxemi**




Aqro-sənaye klasterin özəyini daxili və xarici bazarda tanınan, nüfuzlu, alıcıların rəğbətini qazanmış, müasirliyi ilə seçilən kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və satışı ilə məşğul olan müəssisələr təşkil etməlidir. Alternativ variant kimi, klasterin özəyi statusunda innovasiya yönümlü iri aqrar-emal müəssisəsi çıxış edə bilər. Hazırda bir sıra Şərqi və Qərbi Avropa ölkələrində iqtisadiyyatın müxtəlif sahələrində işçilərinin ümumi sayı 42 mln. nəfərdən ibarət olan 2100-dən çox klaster fəaliyyət göstərir ki, onların da 11,5 %-i aqrar-sənaye kompleksində olmaqla 4,5 mln. nəfəri işlə təmin edirlər [13]. Azərbaycanda aqrar sənayenin klasterləşməsi özünün ilkin mərhələsindədir və bu sahə müvafiq konseptual və metodiki yanaşma, normativ-hüquqi baza lazimi səviyyədə təşkil edilmədiyindən bu yarımfəsildə onların tədqiqinə və şərhinə üstünlük verilmişdir. Beynəlxalq təcrübədə aqro-



© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

sənaye klasterlərinin milli, regional, sahə və təsərrüfat subyektləri üzrə üstünlüklərini fərqləndirirlər. Onların məzmunu 1 saylı cədvəldə əks etdirilmişdir. Həmin üstünlüklər nəzərə alınmaqla aqro-sənaye klasterinin iştirakçıları tərəfindən kompleks tədbirlərin həyata keçirilməsi vacibdir.

**Cədvəl 1.**

**Aqrar-sənaye klasterlərin üstünlükləri**

| İdarəetmə səviyyələri | Üstünlüklərin məzmunu |
|---|---|
| **Regional** | Regionda kənd təsərrüfatının davamlı inkişafının inteqrasiya olunan elementi kimi dövlət idarəetmə strukturları ilə təşkilatçı – iştirakçılar arasında tərəfdaş münasibətin formalaşdırılması;<br>Region iqtisadiyyatının diversifikasiyasının gücləndirilməsi;<br>Regionda sosial-iqtisadi gərginliyi azaltmağa imkan verən yeni iş yerlərinin yaradılması hesabına kənd əhalisinin məşğulluğunun artırılması;<br>Regionun rəqabət qabiliyyətinin və innovasiya potensialının gücləndirilməsi; |
| **Sahə** | Kənd yerlərində iqtisadiyyatın inkişafına dair sahəyanaş-manın aradan qaldırılması;<br>Sıx tərəfdaşlıq əlaqələrinin qurulması;<br>İdarəetmənin müxtəlif səviyyələrində innovasiya prosesinin səmərəliliyinin yüksəldilməsinə təminat yaradan yeni texnologiyaların sənaye müəssisələrində tətbiq edilməsi |
| **Təsərrüfat subyektləri** | Kənd təsərrüfatı sahələrinin elmi-tədqiqatlarının nəticələrinə və müvafiq təşkilatlarla əməkdaşlığa münbit şəraitin yaradılması;<br>İnformasiya – logistika əməliyyatları və sənədləşmə - informasiya axını mühitində vahid yanaşmanın formalaşdırılması<br>Klaster iştirakçılarının mövcud problemlərinin birlikdə və qarşılıqlı əlaqədə sistem şəklində həll edilməsi;<br>Klaster iştirakçılarının birgə səyi nəticəsində maliyyə təminatının yaxşılaşdırılması əsasında istehsalın həcminin artırılması və məhsulun keyfiyyətinin yaxşılaşdırılması;<br>Klasterin iştirakçı müəssisələrində çalışan bütün işçilərin əmək şəraitinin, həyat keyfiyyətinin yaxşılaşdırılması və onların əmək haqqının yüksəldilməsi |



Tədqiq edilən iqtisadi rayonda yaradılması tövsiyyə edilən aqro-sənaye klasterinin əsas iştirakçıları sırasına: hər bir inzibati rayonun İcra Hakimiyyəti orqanları, onların yerlərdəki nümayəndələri, maraqlı tərəfdaş kimi qeyri-kommersiya təşkilatları, assosiasiyalar və digər təşkilatlar çıxış edə bilər. Beynəlxalq təcrübədə həmin iştirakçıların dəstəyi ilə regionda (sahədə) Klasterlərin İnkişafı Mərkəzi (KİM) və "Klasterləşmə fondu" yaradılır. Klasterin fəaliyyəti ilə əlaqədar əsas tədbirlərin həyata keçirilməsində həmin Mərkəz və Fond mühüm rol oynayır. Lənkəran iqtisadi rayonunda, onun ayrı-ayrı inzibati bölgələrində aqro-sənaye klasterinin yaradılması prosesində – hazırlıq, əsas və yekun mərhələlərin üzvi tərkib hissələri və onların ardıcıllığı mütləq nəzərə alınmalıdır. Regionda klasterin yaradılması mərhələlərinin məzmunu aşağıdakı kimi göstərilməlidir:

Hazırlıq mərhələsi: regionda klasterlərin yaradılmasının zəruriliyinin əsaslandırılması; klaster təşəbbüsünün müəyyən edilməsi, klasterləşmə potensialının qiymətləndirilməsi; regionda klaster layihələrinin həyata keçirməsi proqramının işlənilməsi.

Əsas mərhələ: regionda klaster layihəsinin icrası üzrə koordinasiya mərkəzinin yaradılması; regionda klasterin məqsəd və vəzifələrinin müəyyən edilməsi; klaster iştirakçılarının tərkibinin müəyyən edilməsi; klasterin əsas iştirakçıları arasında kommunikasiyanın inkişafı; regionda klasterin inkişafı proqramının icra edilməsi.

Yekun mərhələ: klasterin fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi; klasterin inkişafı proqramının korrektə edilməsi və təkmilləşdirilməsi; mərhələlərin icrası zamanı müvafiq koordinasiya mərkəzinin və inkişaf proqramının işlənilməsi, onun icrası üzərində nəzarətin təşkili qaçılmazdır.

Yuxarıda şərh edilən metodoloji yanaşmaları rəhbər tutaraq, aqrar-sənaye klasterinin prinsipal strukturu tərəfimizdən aşağıdakı kimi formalaşdırılmışdır (şəkil 2).

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Şəkil 2.**

**Aqro-sənaye klasterin ümumiləşdirilmiş prinsipial strukturu**




Şəkildən göründüyü kimi, aqrar-sənaye klasterinin strukturu aşağıdakı üç əsas blokdan ibarətdir: klasterin birbaşa iştirakçıları; qarşılıqlı təsirdə olan təşkilatlar; müxtəlif təyinatlı infrastruktur. Bununla yanaşı klasterin özəyində (idarə aparatında) Direktorlar Şurası və Klasterin İnkişaf Mərkəzinin olması vacib şərtdir. Hazırda Azərbaycanın aqarar sahədə 350-



© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

dən çox müxtəlif təyinatlı özəl Səhmdar Cəmiyyətləri mövcuddur. Onların əksəriyyəti hələ Sovetlər dövründə fəaliyyət göstərən müəssisələrin özəlləşdirilməsi əsasında yaradılmışdır. Yeni təşkil edilən aqrar-emal müəssisələrin demək olar ki, hamısı şəxsi mülkiyyətə məxsusdur. Kənd təsərrüfatının əkin sahələri də fermerlərin sərəncamındadır. Bir sıra aqrar-emal müəssisələri qarışıq mülkiyyət formasında fəaliyyət göstərir. Onların hər birinin artıq formalaşan idarə strukturu, iş üslubu, təsərrüfat əlaqələri, maliyyələşdirmə mənbələri, bazarları, istehlakçıları mövcuddur. Belə şəraitdə onları yeni idarəetmə formasına (klasterə) cəlb etmək asan deyil və böyük səylər tələb edir. Odur ki, iqtisadi rayonda aqrar-sənaye klasterlərinin yaradılması və inkişaf etdirilməsində mərkəzi və regional dövlət hakimiyyət orqanları müxtəlif mexanizm və alətlərin köməyi ilə onlara dəstək olmalıdırlar. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsində nəzərdə tutulan hədəflərə uyğun apardığımız ilkin araşdırmalar göstərir ki, Lənkəran iqtisadi rayonunda bir sıra fəaliyyət sahələrində klasterlər yaratmaq regionun iqtisadi potensialından səmərəli istifadə etməyə imkan verə bilər. Yaradılması mümkün olan sahə klasterlərin təsnifatı 3 saylı şəkildə əks etdirilmişdir.

**Şəkil 3.**

**Lənkəran iqtisadi rayonu üzrə perspektivdə yaradılması mümkün olan sahə klasterlərin təsnifatı**




Həmin iqtisadi rayonda aqrar-emal klasterlərin yaradılmasını şərtləşdirən amillər aşağıdakılardır: Birincisi, rayonda 1061 nəfər sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkarlar müxtəlif təyinatlı məhsullar istehsal edirlər; ikincisi, bu iqtisadi rayonda fəaliyyət göstərən sənaye müəssisələrin sayı 2010-2019-cu illərdə 13% artmışdır, üçüncüsü, iqtisadi rayonda fəaliyyət göstərən emal sənayesi müəssisələrinin anbarlarında hazır məhsul qalığı qeyd edilən illər ərzində 105,6 artmışdır; dördüncüsü, emal müəssisələrində yüksək işçi axıcılığı müşahidə edilir; beşincisi, maliyyə çatışmazlığı səbəbindən hər il çoxsaylı sahibkarlıq subyektləri ləğv edilirlər; altıncısı, emal müəssisələrinin əksəriyyəti aşağı güclə işləyir, innovasiya aktivliyi və ixrac imkanları aşağıdır [3, 4]. Fikrimizcə həmin nöqsanların aradan qaldırılmasında aqroparkların, aqrar-sənaye və yaxud regional innovasiya yönümlü klasterlərin, qəsəbələrdə sənaye xidmət məhəllələrinin yaradılması və inkişafı mühüm rol oynamaqla yüksək sinerji effekti verə bilər.

**Nəticə**

Azərbaycanda klasterləşmə prosesində aşağıdakı bir sıra problemlər və inkişafa mane olan amillər mövcuddur: klasterlərin yaradılması və inkişafına dair qanunvericilik bazasında mövcud olan boşluqlar; Klasterlərin yaradılması üzrə təkmil metodiki vəsaitlərin olmaması; aqrar-sənaye biznesində klaster strukturunun inkişafı üçün müvafiq infrastrukturunun az olması; aqro klasterin inkişafına dair bu vaxtadək məqsədli proqramın tərtib edilməməsi; yüksək ixtisaslı kadır çatışmazlığı; aqrar-elm və istehsalat arasında sıx üzvi əlaqənin təşkil edilməməsi; aqrar-emal müəssisələrinin innovasiya aktivliyinin aşağı olması. Aqrar-sənaye klasterlərinin yaradılması üzrə beynəlxalq təcrübədən istifadə etməklə həmin nöqsanları və problemləri aradan qaldırmaq mümkündür. Bunun üçün idarəetmənin bütün səviyyələrində səyləri cəmləşdirmək və aparılan elmi-tədqiqat işləmələrindən lazımınca bəhrələnmək və kadrların potensial imkanlarından səmərəli istifadə etmək lazımdır.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Bakı, 2016, 157 s.
2. Nuriyev Ə.X. "Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları". Bakı, "Avropa", 2013, 422 s.
3. Azərbaycanda ticarət. Statistik məcmuə. Bakı, "DSK", 2018, 180 s., 2020, 184 s.
4. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun illik hesabatlarının məlumatları
5. https://report.az/iqtisadiyat_xeberleri/ask/
6. https://fins.az/...(aqrar sektorun_inkişafında_aqroparkların rolu)
7. www.maria.az/news/12339
8. https://naibecar.com/news/1568
9. https://samgd.ru/main/225635
10. www.aqroprompark_kazan.ru/
11. https://Hins.az/.../azerbaycanda_hansı_aqroparklar
12. www.asqroup.az/projekts/current.75/lang.az
13. https://kresdrov.ru/.../akademik_anatoliy_chernyaev




***Хикмет Фирдовси оглы Салимов***

***В результате создания агропарков и кластеров в Ленкоранском экономическом районе возможности для расширения маркетинговой деятельности***

***Резюме***

*В статье рассматривается вклад концентрации деятельности по производству, переработке, логистике в едином направлении с применением современных технологий в агропарках и кластерах в экономический район. Отмечено, что создание агропарков наряду с обеспечением потребностей садоводства, птицеводства и животноводства в сырье за счет местного производства создаст условия для минимизации импорта продовольствия и расширения экспортных возможностей сельскохозяйственной продукции. В статье рассматриваются экономическая сущность кластеров и кластеризации, особенности, виды и преимущества, исследования и подходы зарубежных и азербайджанских ученых в этой области. Были широко проанализированы цели и задачи концепции создания и деятельности агропромышленного кластера, принципы и методы в процессе реализации данной концепции и даны рекомендации и предложения.*

***Ключевые слова:*** *маркетинг, агропарк, кластер, агроперерабатывающее предприятие, логистика, производство, переработка.*

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Hikmet Firdovsi oglu Salimov**

**As a result of the creation of agro-parks and clusters in the Lankaran economic region opportunities to expand marketing activities**

**Summary**

*The article discusses the contribution of concentrating activities on production, processing, logistics in a single area with the application of modern technologies in agro-parks and clusters in the economic region. It was noted that the creation of agro-parks, along with meeting the needs of horticulture, poultry and livestock for raw materials through local production, will create conditions for minimizing food imports and expanding export opportunities for agricultural products. The article discusses the economic nature of clusters and clustering, specific features, types and advantages, research and approaches of foreign and Azerbaijani scientists in this field. The goals and objectives of the concept of creation and activity of agro-industrial cluster, principles and methods in the process of implementation of this concept were widely analyzed and recommendations and suggestions were given.*

***Keywords:*** *marketing, agro-park, cluster, agro-processing enterprise, logistics, production, processing.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 23.05. 2022.***
***Çapa qəbul olunub: 31.05.2022.***



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az